# Nəyi deyiriksə, onu da edirik...

**Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində yaradılan möhkəm təməl son 21 ilin uğurlarının əsasıdır. 1993-2003-cü illəri əhatə edən dövrün reallıqlarına diqqət yetirsək görərik ki, məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. Həmin illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi. Məhz buna görə dövlətimizin başçısı İlham Əliyev bildirir ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik.**




*Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına qovuşdurdu*

## Niyə məhz 2003-cü il?!..

2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etdi. Müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqlədi, yəni Heydər Əliyev siyasəti davam etdirildi. "Son 20 ilin tarixinə gəldikdə isə hər şey göz qabağındadır" söyləyən Prezident İlham Əliyev bildirir ki, sadəcə olaraq onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Bu, həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər.

2003-cü ildən sonrakı mərhələdə hakimiyyətin etibarlı əllərdə olması vacib olmaqla yanaşı, sanki xalqın qarşısında götürülən bir öhdəlik idi. Qeyd etdiyimiz kimi, Azərbaycan xalqı həmişə olduğu kimi, müdrikliyini göstərərək öz səsini Heydər Əliyev siyasətinə verdi. 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciətində bu çağırışı etmişdir: *"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

## Güclü xalq, güclü dövlət, güclü Lider...

Bu çağırışdan və xalqın 2003-cü ildə keçirilən prezident seçkilərindəki seçimindən bizləri ayıran 21 illik zamanın Azərbaycana gətirdiyi yeniliklər, dövlətimizin dünyanı təkmil inkişaf modelinə söykənən uğurları ilə heyrətləndirməsi xalqın seçimində yanılmadığını təsdiqləyir. Məhz bu illər ərzində güclü xalq, güclü dövlət, güclü liderin vəhdəti müasir müstəqil Azərbaycanı qüdrətli dövlətə çevirdi. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıların həyatına daxil oldu. Məhz görülən işlərin gələcək hədəflərin nəticəsi olaraq Azərbaycan xalqı ötən 21 ildə keçirilən 2008, 2013, 2018 və 2024-cü il prezident seçkilərində cənab İlham Əliyevə etimad göstərərək Onun qələbəsini təmin etməsinə dəstək oldu. Bununla da bugünkü qalib, ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, yeni dövrə qədəm qoyan Azərbaycanın daha da güclənməsinə, qüdrətlənməsinə yol açdı.

Qeyd etdiyimiz kimi, son 21 il dövlət başçısı İlham Əliyevin verdiyi bütün vədlərin yerinə yetirildiyi dövr kimi dəyərləndirilir. 21 ilin uğurlarının hesabatı kimi qəbul olunan 7 fevral 2024-cü il tarixində keçirilən prezident seçkilərində cənab İlham Əliyev inamlı qələbə qazandıqdan sonra andiçmə mərasimində yeni dövrün hədəflərini açıqladı və son bir il qeyd etdiyimiz kimi, bu mərhələni uğurla başlamaqla yanaşı, uğurla da davam etdiyini təsdiqləyir.

## Dayanıqlı iqtisadi inkişaf bütün uğurlarımızın təməlidir

2003-cü ildə açıqlanan hədəflər sırasında Azərbaycanın dayanıqlı iqtisadi inkişafının təmin edilməsi əsas yer tutdu. Həmin vaxt dövlət başçısı İlham Əliyev "Neft kapitalını insan kapitalına çevirək!" tezisini irəli sürdü və bu istiqamətdə mühüm addımlar atdı. Bölgələrin inkişafında Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb etdi. Regionların sosial-iqtisadi inkişafı ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern islahatlar və digər sistemli hədəflərin reallaşmasında mühüm rola malikdir. Həyata keçirilən Dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün möhkəm zəmin formalaşdı. Prezidentlik fəaliyyətinin ilk dövründə cənab İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzaladı. Regionların inkişafına dair uğurla icra edilən Dövlət proqramları Azərbaycanın müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratdı, tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirdi.

Prezident İlham Əliyev yuxarıda qeyd etdiyimiz andiçmə mərasimində son 20 ilin sosial-iqtisadi uğurlarını rəqəmlər əsasında diqqətə çatdırdı. Bildirdi ki, 2003-cü ildə ümumi daxili məhsulumuz 7 milyard dollar idi. 2023-cü ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizindən də azını təşkil edir. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə minimum əməkhaqqı 9 manat idi. İndi 345 manatdır. Minimum pensiya 2003-cü ildə 20 manat idisə, bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Dinamika, inkişaf və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaradıb. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Dövlətimizin başçısı İlham Əliyev bu əminliyi ifadə edir ki, əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək.

Qarşıdakı dövrün əsas çağırışlarından biri yoxsulluq və işsizliklə bağlı fəaliyyətin davam etdirməsidir. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı məsələlər də uğurla həllini tapır. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı əsasında təsdiqlənən regional inkişaf proqramlarının uğurlu icrası nəticəsində yeni iş yerlərinin yaradılması təmin edilib ki, bu da öz növbəsində işsizlik və yoxsulluq problemlərinin həllinə öz müsbət təsirini göstərir. Prezident İlham Əliyev mütəmadi olaraq bu çağırışı edir ki, yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır. Buna əsas verən əhalinin sayında artımın olmasıdır. Müqayisə üçün qeyd edək ki, müstəqillik dövründə əhalimiz 3 milyon artıb və əhalisi artan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir.

## Qarabağ və Şərqi Zəngəzur iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaq

Yaxın gələcəkdə işğaldan azad edilmiş ərazilərimizin malik olduqları iqtisadi potensialdan səmərəli istifadə öz növbəsində ölkəmizin dayanıqlı inkişafına töhfələr verəcək. Qarabağ və Şərqi Zəngəzur iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaq. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, həm də turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcək. Özünüməşğulluq proqramı icra edilir. Ailə təsərrüfatlarına asan dəstək göstərilməsi məqsədilə ABAD mərkəzlərinin coğrafiyası genişləndirilir. Hazırda bu mərkəzlərin işğaldan azad edilmiş ərazilərimizdə də yaradılması hədəflər sırasındadır. Ümumiyyətlə, sosial xidmətin təkmilləşdirilməsi, yenilənməsi bu ərazilərdə əsas hədəflərdəndir. Artıq Şuşada "ASAN xidmət" mərkəzi yaradılıb. Yaxın zamanlarda onun digər ərazilərdə də yaradılması nəzərdə tutulub.

Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibədə sağlamlıqlarını itirmiş şəxslərin sosial müdafiəsidir. İndiyədək bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14 min 800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcək. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" uğurla icra edilir. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib. Ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Yeni bölgüyə əsasən iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırıldı. Bu bölgü Qarabağ və Şərqi Zəngəzur bölgələrinin sürətli inkişafına xidmət edir. Bunun üçün Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Ağdərə, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradıldı.

## Uğurlu enerji siyasəti Azərbaycana bütün dünyada şöhrət qazandırır

Təbii ki, qeyri-neft sektorunun uğurlu inkişafı Azərbaycanın neft-qaz sektorunda qazandığı uğurlara əsaslanır. Bunun üçün ölkəmizin ötən 21 ildə enerji sektorunda qazandığı uğurların xronologiyasına diqqət yetirmək kifayətdir. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir. Azərbaycan neftinin Ceyhan terminalına məhz 28 May- Respublika Günündə (hazırda Müstəqillik Günü) çatmasının öz rəmzi mənası olduğunu bildirən dövlət başçısı İlham Əliyev xalqa təbrikində bu mühüm məqamı da xüsusi qeyd etmişdir ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi imkanlarını, beynəlxalq münasibətlər sistemində yerini və rolunu təsəvvür etmək çətin deyildi.

2017-ci ildə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında yeni Saziş imzalandı. Bununla da "Azəri-Çıraq-Günəşli" nəhəng neft yataqları blokunun işlənilməsində yeni dövr başlandı. "Yeni əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın neft strategiyasının yeni mərhələsinin əsasını qoydu. Bu gün Azərbaycan eyni zamanda qaz ixracatçısıdır. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin iyirmi illiyində Cənub Qaz Dəhlizi layihəsinin təməlqoyma mərasimi keçirildi. 4 il sonra, 2018-ci ilin mayında Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu. Həmin ilin iyunun 12-də Türkiyənin Əskişəhərində TANAP-Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. 2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin rəsmi açılışı oldu. 2020-ci il dekabrın 31-də TAP layihəsi tamamlanaraq istifadəyə verildi. Qısa xronologiya ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının son 21 ildə Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın enerji sektorunun bu günü və gələcəyi üçün hansı uğurlara imza atıldığının aydın mənzərəsini yaradır. Nəzərə alsaq ki, hər bir ölkənin inkişafında iqtisadi tərəqqi əsas faktordur, bu halda uğurlarımızın önəmi daha aydın görünür. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

İqtisadi uğurlarımız qeyd etdiklərimizlə tamamlanmır. Bu ilin noyabr ayında keçirilən COP29 tədbiri, həmçinin Azərbaycanın D-8 təşkilatına üzv seçilməsi Azərbaycanın iqtisadi imkanlarının təqdimatında öz sözünü deyir. Təbii ki, 21 ilin uğurları Azərbaycanın dayanıqlı iqtisadi inkişafının nümunəviliyini göstərir. Belə ki, tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuğun aparılması ölkəmizin iqtisadi imkanlarının göstəricisidir. Çox qısa zamanda Qarabağın və Şərqi Zəngəzurun hava qapılarının dünyaya açılması beynəlxalq səviyyədə də təqdir edilir. Laçın Beynəlxalq Hava Limanı isə 2025-ci ilin əvvəllərində istifadəyə verilməsi nəzərdə tutulur. Onu da qeyd edək ki, sosialyönümlülüyü ilə diqqətdə olan və artıq Milli Məclisdə üçüncü oxunuşda qəbul edilən 2025-ci ilin dövlət büdcəsindən ayırmalarda da bərpa işlərinə və hərbi qüdrətimizin artırılmasına yönələn vəsaitlər diqqətdən kənarda qalmır.

## Tarixi Zəfərimiz iqtisadi müstəqilliyin hansı uğurlara yol açmasının təsdiqidir

İqtisadi uğurlarımız bütün sahələrdə davamlı uğurları şərtləndirir. Bu gün dünyaya səs salan tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpası Azərbaycanın iqtisadi müstəqilliyinin hansı uğurlara yol açdığını nümayiş etdirir. Müharibə şəraitində yaşayan ölkə üçün qüdrətli iqtisadiyyatın, güclü ordunun olması vacibdir. Ümummilli liderin yaratdığı möhkəm təməl son 21 ildə Prezident İlham Əliyevin uğurlu addımlarına zəmin yaratdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirmişdir: *"Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik".* Reallıq budur ki, ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına Qələbəni bəxş etmiş müzəffər orduya çevrildi. Əvvəldə də qeyd etdiyimiz kimi, rəşadətli ordumuz ötən il suverenliyimizin tam bərpasını təmin etdi.

## İdeoloji risklər sərhəd tanımır

Bu Zəfərlər xalqımızın yenilməzliyinin, məğrurluğunun, torpağa, Vətənə bağlılığının nümayişi oldu. Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında bu çağırış xüsusi qeyd edilir ki, Azərbaycan gəncləri milli ruhda tərbiyə olunmalıdır. Gənclərin potensialından səmərəli istifadə olunması müasir müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan biridir. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirlər dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Prezident İlham Əliyev bildirir ki, özümüzü ideoloji risklərdən qorumalıyıq: *"İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir".*

Azərbaycan xalqı özünün seçib etimad göstərdiyi Prezidentinin ətrafında bir yumruq kimi birləşib. Əvvəllər bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Hazırda Azərbaycanın beynəlxalq önəmi dünyanın qlobal problemlərinin həllində rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq, bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir. Cənab Prezident deyib: *"Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir... Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük".*

## Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə uğurlu siyasi davranış modeli gətirdi

İqtisadi və siyasi islahatların vəhdətinin yaradılması Azərbaycanın hərtərəfli inkişafının təmin edilməsində vacib amillərdən biridir. Bu il keçirilən prezident və parlament seçkiləri Azərbaycanın demokratik inkişafına yeni səhifələr yazdı. Bu illər ərzində insan hüquqlarının qorunması, siyasi sistemin təkmilləşdirilməsi, azad mətbuatın inkişafı istiqamətində atılan addımlar davamlılığı ilə diqqət çəkdi. Bu baxımdan "Media haqqında", həmçinin "Siyasi partiyalar haqqında" yeni qanunların qəbulunu xüsusi qeyd etməliyik. Bu addımlar tarixi Zəfərimizin yaratdığı reallıqların qarşıya qoyduğu çağırışlar əsasında reallaşdırıldı. Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim etdi. Milli ləyaqət, milli qürur uğurlarımızın əsas şərtləri oldu.

Bu gün ölkəmizdə söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət yalnız qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Azərbaycan KİV-lərin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqedə dayanır. Ölkəmizdə 5 mindən artıq kütləvi informasiya vasitəsi dövlət qeydiyyatına alınıb. Xeyli sayda jurnalist təşkilatları və ictimai birliklər fəaliyyət göstərir. Sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır. Ölkəmizdə internet azaddır, heç bir məhdudiyyət yoxdur. Ölkə əhalisinin 85 faizi internet istifadəçisidir.

## YAP bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq

Siyasi sistemin təkmilləşdirilməsində Yeni Azərbaycan Partiyasının (YAP) rolu böyükdür. Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 21 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyası qəbul etdiyi qərarları, irəli sürdüyü təşəbbüsləri ilə daim ölkəmizin inkişafına, siyasi sistemin təkmilləşdirilməsinə öz töhfələrini verir. Yeni Azərbaycan Partiyasının 2005-ci ildə keçirilən III qurultayında partiyanın Sədri seçilən Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP-ın bu illər ərzində qət etdiyi inkişaf yolu göz qabağındadır. Məhz partiyanın ölkə daxilində, eyni zamanda hüdudlarından kənarda qazandığı nüfuza söykənərək dövlət başçısı İlham Əliyev bildirir ki, Yeni Azərbaycan Partiyası ölkənin, regionun aparıcı siyasi təşkilatıdır. Tarixi Zəfərimizin reallıqları əsasında keçirilən partiyanın VII qurultayında dövlətimizin başçısı İlham Əliyev belə bir əminliyi də ifadə etdi ki, YAP bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Digər qurultaylar kimi, VII qurultayda da yeni qərarların qəbulu partiyanın qarşısında geniş imkanlar açdı. Eyni zamanda yeni tərkib formalaşdı. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın YAP sədrinin birinci müavini təyin edilməsi partiyanın qarşısında dayanan hədəflərin uğurlu icrasına böyük dəstək oldu. 2024-cü ildə keçirilən prezident və parlament seçkiləri Yeni Azərbaycan Partiyasının cəmiyyətdə nüfuzunun göstəricisi oldu.

Çoxpartiyalı parlamentin formalaşması Azərbaycanın demokratik inkişafının göstəriciləridir. İqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində inkişaf etdirilməsi Prezident İlham Əliyevin dövlət siyasətini xarakterizə edən əsas göstəricilərdən biridir. Prezident İlham Əliyevin tapşırığı əsasında üzvlərinin sayından, ölkə ərazisini əhatə vəziyyətindən, siyasi çəkisindən və hər hansı digər amillərdən asılı olmayaraq siyasi partiya rəhbərləri ilə davamlı şəkildə keçirilən görüşlər demokratik ənənələrin dərinləşməsinə xidmət edən təcrübədir.

## Şuşanın azad olunması Müzəffər Ali Baş Komandanın Zəfər zirvəsidir

Azərbaycan bütün sahələrdə uğurları ilə diqqətdədir. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz və birgünlük lokal antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsi son 21 ildə möhkəm təməl üzərində həyata keçirilən uğurlu siyasətin nəticəsi oldu. Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev adını tariximizə torpaqlarımızın xilaskarı kimi qızıl hərflərlə yazdı.

## Azad edilmiş ərazilərimiz nəhəng quruculuq meydanına çevrilib

Hazırda işğaldan azad edilmiş ərazilərimiz nəhəng quruculuq meydanına çevrilib. Bu yerlərdə bərpa və quruculuq geniş vüsət alıb. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Hazırkı dövrün əsas hədəfi azad edilmiş ərazilərdə quruculuğun həyata keçirilməsidir. Statistikaya nəzər salaq. 2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən bərpa-quruculuq işlərinə toplam 22 milyard manata yaxın vəsait (o cümlədən 2025-ci ildə 4 milyard manat) ayrılmışdır. Üç hava limanının inşa olunması, 100 kilometrlərlə dəmir yolunun çəkilməsi regionun logistik simasını tamamilə dəyişdirir. Füzuli Beynəlxalq Hava Limanı cəmi səkkiz ay ərzində tikilib. Zəngilan Beynəlxalq Hava Limanı da qısa müddətdə inşa olunaraq istifadəyə verilib. 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi nəzərdə tutulur. Yüzlərlə kilometr avtomobil yolu çəkilir. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib. Artıq bir neçə su elektrik stansiyasının açılışı olub. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialını 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir. İçməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, bir milyon insanın doğma məkanlarına qaytarılması, yüzlərlə məktəb, xəstəxana, idman kompleksləri, mədəniyyət ocaqların inşası, habelə digər irihəcmli işlər Böyük Qayıdış çərçivəsində reallaşdırılacaq.

Zəfərlərimiz bütün regiona sülh və davamlı inkişaf imkanı qazandırdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində Cənubi Qafqazın beynəlxalq statusu dəyişdi və region ölkələrinin inkişafı üçün yeni imkanlar açıldı. Artıq inamla söyləmək olar ki, münaqişənin həlli regionun təhlükəsizliyi və investisiya cəlbediciliyi baxımından strateji əhəmiyyətə malikdir.

## Hər bir vədin arxasında əməli fəaliyyət dayanır

Hər bir vədini əməli fəaliyyəti ilə təsdiqləyən Prezident İlham Əliyevə Azərbaycan xalqının sevgisi, inamı və etimadı sonsuzdur. Cənab İlham Əliyev Azərbaycanı gücləndirdi, qalibiyyətimizi şərtləndirən bütün amillərin yaradılmasına nail oldu və sonda azadlığına qovuşacağını 30 il səbirsizliklə gözləyən torpaqlarımıza "Biz gəldik və burada əbədi olacağıq" söylədi. Prezident İlham Əliyevin qalib Lider kimi işğaldan azad edilmiş ərazilərimizə səfərləri bu torpaqlara əbədi gəlişimizin təsdiqidir. Bugünümüzün reallıqları, eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın "Qoy bizim üçrəngli Bayrağımız suveren, qüdrətli Azərbaycan səmasında əbədi dalğalansın!", "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" kimi istəklərinin təsdiqidir. Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində sahibinə qovuşan torpaqlarımız tezliklə əsl cənnətməkana çevriləcək, Böyük Qayıdış Proqramı uğurla başa çatacaq, bu torpaqlarda yeni həyat başlayacaq. Biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan Bayrağı azad Qarabağda və Şərqi Zəngəzurda əbədi dalğalanacaq.

Qeyd etdiklərimiz dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin *"Bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir. Yəni, nəyi deyiriksə, onu da edirik. Sözümüzü tutan insanlarıq və həyat bunu dəfələrlə göstərib"* fikirlərinin təsdiqi, qarşıdakı uğurlarımızın yol xəritəsidir.

**Vüqar RƏHİMZADƏ,**
**Milli Məclisin deputatı.**